**Fitosanitar monitorinqlərə dair məlumat**

**(19 dekabr 2022)**

Agentliyin Bərdə regional bölməsinin müfəttişləri tərəfindən Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin əməkdaşlarının iştirakı ilə Bərdə, Tərtər, Ağdam rayonlarına aid 36 ha park və yaşıllıq ərazisində monitorinqlər həyata keçirilib.

Monitorinqlər nəticəsində 3 ha sahədə karantin tətbiq edilən zərərvericilər olan Yaponiya yalançı qalxanlı mumlu yastıcası və komstok yastıcası ilə zəif sirayətlənmə aşkarlanıb. Karantin obyektləri ilə sirayətlənmə zəif olduğu üçün kimyəvi mübarizənin aparılması məqsədəuyğun hesab edilməyib, digər zəruri tədbirlər həyata keçirilib.